# AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ RİYAZİYYAT VƏ MEXANİKA İNSTİTUTUNUN "RİYAZİ FİZİKA TƏNLİKLƏRİ" ŞÖBƏSİNİN 2024-CÜ İLİN ELMİ VƏ ELMİ-TƏŞKİLATİ FƏALİYYƏTİ HAQQINDA

## İLLİK

## H E S A B A T I

"Riyazi fizika tənlikləri" şöbəsində 10 nəfər elmi işçi olmaqla, 13 işçi çalışır. Onlardan 3nəfəri **elmlər doktoru, professor**:

**1.** Ədalət Axundov Y. – baş elmi işçi, (tam ştat).
**2.** Fərman Məmmədov İ. – baş elmi işçi, (tam ştat).
**3.** Nazim Kərimov B. – baş elmi işçi, (0,5 ştat).

**6 nəfər riyaziyyat üzrə fəlsəfə doktoru:**

**4.** Əbdürrəhim Quliyev F. – şöbə müdiri, aparıcı elmi işçi, (tam ştat).
**5.** Şirmayıl Bağırov H. – aparıcı elmi işçi, dosent, ( 0,5 ştat ).
**6.** Elçin Məmmədov M. – aparıcı elmi işçi, dosent, (tam ştat).
**7.** Nazim Cəfərov C. – böyük elmi işçi, (tam ştat).
**8.** Vəfa Məmmədova Ə. – aparıcı elmi işçi, dosent, (tam ştat).
**9.** Aynur Həsənova H. – böyük elmi işçi, dosent, (tam ştat).
**10.** Sayalı Məmmədli M. – elmi işçi, dissertant (tam ştat).

**3 nəfər laborant:**

**11.** Lalə Mustafaeva M. – baş laborant, (tam ştat).
**12.** Aydan Abdullayeva C. – laborant, (tam ştat).
**13.** Aynur Cəbrayılova F. – laborant, doktorant, (0,5 ştat).

## I. ELMİ HİSSƏ.

**2024-cü ildə şöbədə plana əsasən təsdiq olunmuş "Müxtəlif tip diferensial tənliklər üçün sərhəd-başlanğıc məsələlərinin həllolunanlığı, həllərinin keyfiyyət xassələri və tətbiqləri" mövzusu üzrə doqquz istiqamətdə elmi tədqiqat işi aparılır.**

## <u>İŞ1:</u> "Cırlaşan əmsallı 2-ci tərtib parabolik tənliklərin həllərinin Viner tip keyfiyyət xassələri".

**İcraçı: şöbə müdiri, f.-r.e.n., Ə.F. Quliyev.**

Hesabat dövründə istilikkeçirmə tənliyi üçün Dirixle məsələsinə nəzərən sərhəd nöqtəsinin requlyarlığının potensial terminində meyarı tapılmış və ondan xüsusi halda nəticə kimi çıxan requlyarlığın istilik tutumu terminində meyarı alınmış və simmetrik oblastlar üçün Petrovskinin birölçülü halda məhşur inteqral meyarının n-ölçülü analoqu verilmişdir.

**Çap olunmuş məqalələr:**

1. A.F. Guliyev, *Wiener-type Criterion for the Heat Equation in terms of the Parabolic Potential and its corollaries*. Dahi Azərbaycan alimi və mütəfəkkiri Nəsirəddin Tusinin xatirəsinə həsr olunmuş "Riyaziyyat və Mexanikanın Müasir Problemləri" adlı XI Beynəlxalq Konfransın Materialları, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Riyaziyyat və Mexanika İnstitutu, 03-06 iyul, 2024, Bakı, səh. 116-119.
   https://mpmm.imm.az/pages/abstracts

## <u>İŞ2:</u> "Burgers tipli parabolik tənlik üçün bir tərs məsələ haqqında".

**İcraçı: prof. Ə.Y. Axundov.**

Hesabat dövründə baxılan məsələnin yeganəliyi və dayanıqlığı haqqında teorem isbat olunmuşdur.

**Çap olunmuş məqalələr:**

1. A.Ya. Akhundov, *On an ınverse problem for an elliptic equatıon.* **Uzb. Math. Journal**, vol. 68, no. 2, 2024, pp. 15-19.
   https://drive.google.com/file/d/18cvWwppLhIB0Geu2bO1VeVpN69vB_Sg9/view
   DOI: 10.29229/uzmj.2024-2-2

2. A.Ya. Akhundov, N.C. Pashaev, *İnverse problem for Burgers type parabolic equations*. Dahi Azərbaycan alimi və mütəfəkkiri Nəsirəddin Tusinin xatirəsinə həsr olunmuş "Riyaziyyat və Mexanikanın Müasir Problemləri" adlı XI Beynəlxalq Konfransın Materialları, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Riyaziyyat və Mexanika İnstitutu, 03-06 iyul, 2024, Bakı, səh. 84-86.
   https://mpmm.imm.az/pages/abstracts

3. Akhundov A.Ya., *Inverse problems for some systems of parabolic equations.* The IX International Scientific Conference “Actual Problems of Applied Mathematics and Information Technologies – Al-Khwarizmi” (ARAMIT-2024), 22-23 october, 2024, Tashkent, Uzbekistan, p. 128. https://drive.google.com/drive/folders/1fxfbxIGC_Lb1TaBCOqbtudi1hFJ10bvN

**İŞ3: “2-ci tərtib qeyri müntəzəm elliptik və parabolik tənliklərin keyfiyyət nəzəriyyəsi. Kiçik həddində qradient iştirak edən elliptik və parabolik tənliklər üçün varlıq və yeganəlik məsələləri”.**

**İcraçılar: prof. F.İ. Məmmədov, S.M. Məmmədli.**

Hesabat dövründə qeyri-müntəzəm cırlaşmalı elliptik və parabolik tənliklər üçün varlıq və yeganəlik barədə teoremlər isbat olunmuşdur. Alınan nəticələr çapa təqdim edilmişdir.

Sobolev-Puankare tipli qeyri-müntəzəm cirlaşmalı qradient olan bərabərsizliklər isbat olunmuşdur. Nəticələr tənliklərə tətbiq ediləcəkdir.

**Çap olunmuş məqalələr:**

1. F.I. Mamedov, N.M. Mammadzada, S.M. Mammadli, *To the Weak Solvability of Dirichlet Problem for a Fractional Order Degenerate Elliptic Equation*. **Azerbaijan Journal of Mathematics**, vol. 14, no. 1, 2024, pp. 69-78. https://azjm.org/volumes/1401/pdf/1401-6.pdf

2. G. Di Fazio, F. Mamedov, *On Harnack inequality and Hölder continuity for non uniformly elliptic equations*. **Ricerche di Matematica, Publisher Springer Nature**, 2024. https://doi.org/10.1007/s11587-024-00919-9

3. Farman Mamedov, Yusuf Zeren, Khayala Gasimova, Abdullah Salami, *Dirichlet problem for a non-uniformly elliptic equation with $L^1$ data.* 7th International HYBRID Conference on Mathematical Advances and Applications (ICOMAA-2024), May, 08-11, 2024, Yildiz Technical University, Istanbul, Türkiye, p. 21. https://2024.icomaas.com/wp-content/uploads/2024/06/ICOMAA-2024-ABSTRACT-BOOK0406.pdf

4. F.I. Mamedov, Kh.A. Gasimova, V.A. Mamedova, *Dirichlet problem for a non-uniformly elliptic equation with small terms*. Dahi Azərbaycan alimi və

mütəfəkkiri Nəsirəddin Tusinin xatirəsinə həsr olunmuş "Riyaziyyat və Mexanikanın Müasir Problemləri" adlı XI Beynəlxalq Konfransın Materialları, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Riyaziyyat və Mexanika İnstitutu, 03-06 iyul, 2024, Bakı, səh. 152-154.
https://mpmm.imm.az/pages/abstracts

**İŞ4: "Requlyar sərhəd şərtli yüksək tərtib adi diferensial operatorların bəzi spektral xassələri".**

**İcraçı: prof. N.B. Kərimov.**

Məqalədə

$$-y + q(x)\, y = \lambda\, y\,,\ 0 < x < 1\,,$$

$$y\,(0)\, \sin\beta = y(0)\, \cos\beta\,,\ 0 \le \beta < \pi\,,$$

$$y\,(1) = (\, a\,\lambda^2 \ + b\,\lambda + c\,)\, y(1)$$

şəkilli məxsusi qiymət məsələsinə baxılır. Burada $\lambda$ spectral parametr, $q(x)$ [0, 1] parçasında həqiqi qiymətli kəsilməz funksiya və $a$, $b$, $c$ həqiqi ədədlərdir. Uyğun diferensial operatorun məxsusi və qoşulmuş funksiyalar sisteminin minimallıq və tamlıq xassələri üçün zəruri və kafi şərtlər kvadratik $(\, a \neq 0\, )$ və affin $(\, a = 0\,,\, b < 0\, )$ kimi iki halda tədqiq edilir.

**Çap olunmuş məqalələr:**

1. Nazim Kerimov and Yagub Aliyev, *Minimality conditions for Sturm-Liouville problems with a boundary condition depending affinely or quadratically on an eigenparameter*. **American Mathematical Society, Series: Contemporary Mathematics, Advances in Functional Analysis and Operator Theory**, vol. 798, 2024, pp. 1-12.
   https://doi.org/10.1090/conm/798/15978
   https://books.google.az/books?id=atNl0AEACAAJ&printsec=frontcover&hl=ru&source=gbs_ge_summary_r&cad=0#v=onepage&q&f=false

**İŞ5: "Yüksək tərtib kvazixətti, yarımxətti parabolik tənlik və tənliklər sisteminin sonsuz oblastda qlobal həllərinin varlığının tədqiqi".**

**İcraçı: dos. Ş.H. Bağırov.**

Hesabat dövründə oturacağı kürənin xarici olan silindrik oblastda ümumi formada yarımxəttiliyə malik periodik əmsallı ikitərtibli divergent formalı parabolik tənliyin müsbət qlobal həllinin varlığı məsələsi tədqiq edilmiş, belə həllərin olmaması üçün kafi şərtlər tapılmışdır. Yarım silindrdə, ikitərtibli yarımxətti elliptik tənliyin yarımsilindrin yan səthində bircins Neyman şərtini ödəyən həllərinin sonsuzluğun yaxın ətrafında asimptotik davranışı öyrənilmişdir.

**Çap olunmuş məqalələr:**

1. Sh.G. Bagyrov, *The Absence of Positive Global Periodic Solution of a Second-Order Semi Linear Parabolic Equation With Time-Periodic Coefficients*. **Azerbaijan Journal of Mathematics**, vol. 14, no. 2 (2024), pp. 20-35. http://doi.science.gov.az/pages/journals/azjm/pdf/azjm2024_2_20.pdf

2. Bağırov Şirmayıl Həsən, Həsənova Aytən Məlik, *Silindrik oblastda yarimxətti elliptik tənliyi həllinin asimptotikası.* Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş “Riyaziyyat, mexanika və informasiya texnologiyalarının müasir məsələləri” mövzusunda Respublika Elmi Konfransın Materialları, 02-03 may, 2024, Bakı, səh. 15.

3. Sh.H. Bagyrov, *Absence of global solutions to a system of high-order semilinear equations with a biharmonic operator in the main part.* Dahi Azərbaycan alimi və mütəfəkkiri Nəsirəddin Tusinin xatirəsinə həsr olunmuş “Riyaziyyat və Mexanikanın Müasir Problemləri” adlı XI Beynəlxalq Konfransın Materialları, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Riyaziyyat və Mexanika İnstitutu, 03-06 iyul, 2024, Bakı, səh. 98-99. https://mpmm.imm.az/pages/abstracts

4. Sh.G. Bagyrov, *Absence of global solutions to a system of high-order semilinear equations with a singular potential*. Материалы международной научной конференции «Уфимская осенняя математическая школа», 02-05 октября 2024 г., в 2 томах, том 1, с. 172-173. УОМШ-2024-1.40faab05.pdf

**İŞ6: “Qeyri-xətti sərhəd şərtləri ilə verilmiş bir sinif hiperbolik tənliklər üçün qoyulmuş qarışıq məsələnin həllinin qlobal xassələrinin tədqiqi”.**

**İcraçı: dos. E.M. Məmmədov**

Hesabat dövrü ərzində baş hissədə qeyri-xəttiliyi olan qeyri-xətti sərhəd şərti ilə verilmiş üçüncü tərtib tənlik üçün həllin keyfiyyət xassələri haqqında nəticələr

alınmışdır. Başlanğıc verilənlərin, tənlikdəki və sərhəd şərtindəki qeyri-xəttiliyin üzərinə qoyulan bəzi şərtlər daxilində həllin sonlu zaman müddətində dağılması göstərilmişdır. Alınan nəticələr əsasında 2 məqalə çapa və 1 tezis konfransa təqdim edilmişdir.

**Çap olunmuş məqalələr:**


1. E.M. Mamedov, *On blow-up of solution for one nonlinear problem*. Dahi Azərbaycan alimi və mütəfəkkiri Nəsirəddin Tusinin xatirəsinə həsr olunmuş "Riyaziyyat və Mexanikanın Müasir Problemləri" adlı XI Beynəlxalq Konfransın Materialları, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Riyaziyyat və Mexanika İnstitutu, 03-06 iyul, 2024, Bakı, səh. 149-150. https://mpmm.imm.az/pages/abstracts

2. E.M. Mamedov, *On nonlinear problem for the third order equation*, **Karshi Multidisiplinary International Scientific Journal**, vol. 1, no. 2 (2024), pp. 37-42. http://kmisj.uz/index.php/kmisj/article/view/30

3. Э.М. Мамедов, *Методика преподавания величин в начальных классах*. Глобальные проблемы развития начального образования: Проблемы и исследования, Сборник материалов международной научно-практической конференции, г. Коканд, 2024, стр. 8-10.


**İŞ7: "Paraboloid tipli oblastlarda 2-ci tərtib kəsilən əmsallı parabolik tip tənliklər üçün 1-ci sərhəd məsələsinin Hölder sinfində həll oluna bilməsi".**

**İcraçı: N.C. Cəfərov.**

Hesabat dövründə paraboloid tipli oblastlarda kəsilən əmsallı 2-ci tərtib divergent strukturlu parabolik tənliklər üçün birinci sərhəd məsələsinin Qrin funksiyası üçün qiymətləndirmə isbat edilmişdir. Eyni zamanda paraboloid tipli oblastlarda kəsilən əmsallı 2-ci tərtib divergent strukturlu parabolik tənliklər üçün Dirixle məsələsinin həllinin Hölder fəzasına daxil olması meyarı tapılmışdır. Alınan nəticələr əsasında çapa təqdim etmək üçün məqalə hazırlanır.

**İŞ8: "Qeyri-müntəzəm elliptik və parabolik tənliklərin keyfiyyət xassələri".**

**İcraçı: dos. V.Ə. Məmmədova.**

Hesabat dövründə qeyri-müntəzəm elliptik və parabolik tənliklərin keyfiyyət xassələrini öyrənmək məqsədi ilə Sobolev-Puankare-Fridrixs tipli çəkili inteqral bərabərsizliklər tədqiq edilmişdir. Əsas fəaliyyətlər Fridrixs tipli bərabərsizliklərin yeni isbatına həsr olunmuşdur. Qeyd edək ki, həmin bərabərsizliklər qabarıq oblastlarda təyin olunan və həmin oblastın müəyyən bir alt çoxluğunda sıfıra çevrilən funksiyalara həsr edilmişdir. Ümumiyyətlə, qeyri hamar oblastlarda doğru deyildir. Funksiyalar sinfinin sıfıra çevrildiyi alt çoxluq isə ixtiyari çoxluq ola bilər, Fridrixs bərabərsizliyinin doğru olması üçün həmin alt çoxluğun Lebeq ölçüsünün müsbət olunması tələb olunur.

**Çap olunmuş məqalələr:**

1. F.I. Mamedov, Kh.A. Gasimova, V.A. Mamedova, *Dirichlet problem for a non-uniformly elliptic equation with small terms*. Dahi Azərbaycan alimi və mütəfəkkiri Nəsirəddin Tusinin xatirəsinə həsr olunmuş "Riyaziyyat və Mexanikanın Müasir Problemləri" adlı XI Beynəlxalq Konfransın Materialları, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Riyaziyyat və Mexanika İnstitutu, 03-06 iyul, 2024, Bakı, səh. 152-154. https://mpmm.imm.az/pages/abstracts

**İŞ9:** **"Yarım-xətti parabolik tənlik üçün bir tərs məsələnin həlli haqqında".**

**İcraçı: dos. A.H. Həsənova.**

Hesabat dövründə ikitərtibli yarım-xətti parabolik tip tənlik üçün bir tərs məsələnin həllinin varlığı, yeganəliyi və dayanaqlığı tədqiq olunmuş. Baxılan tərs məsələnin təqribi həlli üçün təklif olunmuş alqoritm əsaslandırılmış və təqribi həllin dəqiq həllə yığılması haqqında teoremin isbat olunması nəzərdə tutulmuşdur.

**Çap olunmuş məqalələr:**

1. H. Hasanova, *Uniqueness and assessment stability of the solution to the inverseproblem for a semilinear equation of parabolic type*. Dahi Azərbaycan alimi və mütəfəkkiri Nəsirəddin Tusinin xatirəsinə həsr olunmuş "Riyaziyyat və Mexanikanın Müasir Problemləri" adlı XI Beynəlxalq Konfransın Materialları, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Riyaziyyat və Mexanika İnstitutu, 03-06 iyul, 2024, Bakı, səh. 131-133. https://mpmm.imm.az/pages/abstracts

## II. TƏŞKİLATİ FƏALİYYƏT

Şöbə müdiri, f.-r.e.n. Əbdürrəhim Quliyev Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Riyaziyyat və Mexanika İnstitutunun Dissertasiya Şurasının elmi katibi, ADNSU-da müəllim vəzifəsində çalışır, DİM-də riyaziyyat fənnindən ekspertdir.

Şöbənin baş elmi işçisi professor Ədalət Axundov Elmi işlər üzrə direktor müavini, Elmi Şuranın üzvü, Dissertasiya Şurasının sədr müavini, Proceedings of Mathematics and Mechanics Institute jurnalının, Bakı Qızlar Universitetinin ”Elmi əsərlər” məcmuəsinin redaksiya heyətinin üzvüdür, Lənkəran Dövlət Universitetində professor vəzifəsində çalışır.

Şöbənin baş elmi işçisi professor Fərman Məmmədov Dissertasiya Şurasının, AAK-nın Ekspert Şurasının üzvü, Azerbaijan Journal of Mathematics, Proceedings of Mathematics and Mechanics Institute, Journal of Contemporary Applied Mathematics, Universal Journal of Applied Mathematics jurnallarının redaksiya heyətinin üzvü, Mathematical Reviews of American Mathematical Society jurnalının rəyçisidir, ADNSU-da professor vəzifəsində çalışır.

Şöbənin baş elmi işçisi professor Nazim Kərimov Xəzər Universitetində professor vəzifəsində çalışır. Proceedings of Mathematics and Mechanics Institute, Transactions issue mathematics of Mathematics and Mechanics Institute, Azerbaijan Journal of Mathematics jurnallarının redaksiya heyətinin üzvüdür.

Şöbənin aparıcı elmi işçisi dosent Şirmayıl Bağırov BDU-nun Mexanika-riyaziyyat fakültəsinin Elmi işlər üzrə dekan müavini, “Diferensial və inteqral tənliklər” kafedrasında dosent vəzifəsində çalışır.

Şöbənin aparıcı elmi işçisi dosent Elçin Məmmədov RMİ-nin Həmkarlar İttifaqının Təftiş komissiyasının üzvüdür, Bakı Dövlət Universiteti və Bakı Qızlar Universitetində dosent vəzifəsində çalışır.

Şöbənin böyük elmi işçisi dosent Aynur Həsənova Clarivate Analytics Web of Science şəbəkəsindən istifadə və məlumatların toplanması məqsədi ilə yaradılan işçi qrupun üzvüdür.

Şöbənin doktorant və dissertantları rəhbərləri (Əbdürrəhim Quliyev, Ədalət Axundov, Fərman Məmmədov, Şirmayıl Bağırov) tərəfindən qoyulmuş mövzular üzrə elmi tədqiqatlarını davam etdirirlər.

Şöbənin baş elmi işçisi prof. Nazim Baxış oğlu Kərimov 31 yanvar 2024-cü il tarixində Azərbaycan Respublikası Elm və Təhsil nazirliyi Riyaziyyat və Mexanika

İnstitutunda keçirilən Ümuminstitut seminarında “Periodik sərhəd şərtli yüksək tərtib diferensial operatorların spektral xassələri” mövzusunda məruzə ilə çıxış etmişdir.

Şöbənin böyük elmi işçisi Nazim Cəfər oğlu Cəfərov 29 may 2024-cü il tarixində Azərbaycan Respublikası Elm və Təhsil nazirliyi Riyaziyyat və Mexanika İnstitutunda keçirilən Ümuminstitut seminarında “Paraboloid tipli oblastlarda kəsilən əmsallı 2-ci tərtib divergent strukturlu parabolik tənliklər üçün birinci sərhəd məsələsinin həllərinin Hölder fəzasına daxil olması meyarı” mövzusunda məruzə ilə çıxış etmişdir.

Şöbə müdiri Əbdürrəhim Fərman oğlu Quliyev 27 noyabr 2024-cü il tarixində Azərbaycan Respublikası Elm və Təhsil nazirliyi Riyaziyyat və Mexanika İnstitutunda keçirilən Ümuminstitut seminarında “İkinci tərtib parabolik tənliklərin həllərinin bəzi keyfiyyət xassələri” mövzusunda məruzə ilə çıxış etmişdir.

Şöbənin baş elmi işçisi prof. Fərman Məmmədov 2024-cü il tarixində BDU-da keçirilən müdafiədə iddiaçının rəsmi opponenti kimi çıxış etmişdir.

Şöbənin aparıcı elmi işçisi dos. Elçin Məmmədov cari ildə riyaziyyat üzrə fəlsəfə doktoru elmi adını almaq üçün üç iddiaçının təqdim etdiyi dissertasiya işlərinə rəy yazmış, bunlardan birinin rəsmi opponenti, digər ikisinin isə ÜTS üzrə rəyçisi olmuşdur.

Şöbənin baş elmi işçisi prof. Nazim Kərimov 31 may, 28 iyun və 6 dekabr 2024-cü il tarixlərində keçirilən müdafiədə iddiaçının rəsmi opponenti kimi çıxış etmişdir.
https://www.imm.az/exp/wp-content/uploads/2024/04/Avt.-az-1-mohurlu.pdf

https://www.imm.az/exp/wp-content/uploads/2024/05/Leyla-avt.-%E2%80%94-az-SCAN.pdf

https://www.imm.az/exp/wp-content/uploads/2024/11/Avt.-Rzayev-azerb.-son-scan.pdf

Şöbənin böyük elmi işçisi Nazim Cəfərov 17 may 2024-cü il tarixində keçirilən müdafiədə iddiaçının rəsmi opponenti kimi çıxış etmişdir.
https://www.imm.az/exp/wp-content/uploads/2024/04/Avtor.-az.-pecat.pdf

Şöbənin əməkdaşları Əbdürrəhim Quliyev və Fərman Məmmədov Türkiyənin alimləri ilə əməkdaşlıqlarını davam etdirərək, elmi əlaqələrini genişləndirmişdilər. Həmçinin, professor Fərman Məmmədov italyan alimləri ilə əməkdaşlığı davam

etdirir. Bundan əlavə, şöbəmizin əməkdaşları Rusiya, Ukrayna, Türkiyə, Özbəkistan, Amerika, İsveç, və s. ölkələrin alimləri ilə elmi əməkdaşlıq edirlər.

Şöbədə hər həftənin üçüncü günləri Əbdürrəhim Quliyevin və Fərman Məmmədovun rəhbərliyi ilə “Riyazi fizikanın müasir problemləri” adlı elmi seminar fəaliyyət göstərir.

## KONFRANSLAR

1. Şöbənin baş elmi işçisi, professor Fərman Məmmədov 08-11 may 2024-cü il tarixlərində Türkiyənin İstanbul şəhərində Yıldız Texniki Universiteti tərəfindən təşkil edilmiş “7th International HYBRID Conference on Mathematical Advances and Applications” Beynəlxalq Konfransda dəvətçi məruzəçi kimi *“On Solvability of the* $L^1$ *Data nonuniformly Parabolic Equations”* mövzusunda online çıxış etmişdir. https://2024.icomaas.com/invited-speakers/

2. Şöbənin aparıcı elmi işçisi dos. Şirmayıl Bağırov 02-03 may 2024-cü il tarixlərində Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş “Riyaziyyat, mexanika və informasiya texnologiyalarının müasir məsələləri” mövzusunda keçirilən Respublika Elmi Konfransda iştirak etmişdir.

***Beləliklə, 2024-cü ildə şöbə əməkdaşlarının ümumilikdə 17 elmi işi çap olunmuşdur, onlardan 6-ı (4-ü xaricdə olmaqla) (6 məqalədən 4-ü Web of Science və Scopus bazalarına daxil olan jurnallarda dərc edilmiş) elmi məqalə, 11-i (4-ü xaricdə olmaqla) tezisdir.***

***Şöbə üzrə 2024-cü il ərzindəki istinadların ümumi sayı – 125.***

**Şöbə müdiri:** **f.-r.e.n. Ə.F. Quliyev**